# Sosial strukturun yenilənməsindən sakinlər razılıq edirlər

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayonun yaşayış məntəqələrində əhali ilə tez-tez görüşlər keçirir, onların qayğı və problemləri ilə maraqlanır, yaranmış çatışmazlıqları yerindəcə həll edir. Belə görüşlərin müntəzəm keçirilməsinin nəticəsidir ki, qəsəbələrimizdə və kəndlərimizdə həlli vacib olan ilkin problemlər tamamilə aradan qaldırılır, görülən işlər əhali arasında böyük ruh yüksəkliyi yaradır.***

## Əmirvan kəndi

Belə görüşlərdən biri rayonun Əmirvan kəndində keçirilib.

Görüş-qəbulda rayonun hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələri iştirak edib.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan uğurlardan, həmin işlərin fonunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bölgəyə göstərdiyi xüsusi diqqət və qayğıdan, eləcə də Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışıb.



Rayon rəhbəri regionların sosial-iqtisadi inkişafı dövlət proqramı çərçivəsində rayonumuzda, həmçinin Əmirvan kəndində həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin icrası vəziyyəti barədə görüş iştirakçılarına ətraflı məlumat verib. Yaxın günlərdə əhalinin istifadəsinə verilən 19 kilometrlik Böyük Əmili-Əmirvan yolunun da belə layihələrdən biri olduğunu diqqətə çatdıran natiq bu istiqamətdə işlərin digər yaşayış mənəqələrində də davam etdiriləcəyini deyib.

Sonra kənd sakinləri dinlənilib. Görüş iştirakçılarından Sərdar Allahverdiyev, Məmməd Əmirov, Sabir Aydınov, Əlfəddin Ağayev və başqaları rayonumuzda həyata keçirilən sosial layihələrin uğurlu icrasına, xüsusilə Böyük Əmili–Əmirvan müasir şosse yolunun yenidən qurulmasına görə Prezident İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildiriblər.



Onlar çıxışlarında əraziyə qaz xəttinin çəkilməsinə, elektrik xətlərinin təmir olunmasına, yaşayış məntəqəsinə gələn içməli su kəmərinin yenilənməsinə, məktəbdə idman zalının tikilməsinə və sakinlərin odun yanacağı ilə təmin olunmasına köməklik göstərilməsini xahiş ediblər.

Qaz xətti çəkilişinin dövlət proqramına uyğun olaraq aparıldığını qeyd edən rayon icra hakimiyyətinin başçısı irəli sürülən digər təkliflərin həlli barədə aidiyyəti təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verib.

## Topbağ kəndi

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin növbəti səyyar görüş-qəbulu rayonun Topbağ kəndinin sakinləri ilə keçirilib.



Görüş-qəbulda rayonun hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayonumuzda və Topbağ kəndində görülən abadlıq-quruculuq işləri barədə görüş iştirakçılarına məlumat verib. Rayon rəhbəri bu istiqamətdə işlərin bütün yaşayış mənəqələrində bundan sonra da davam etdiriləcəyini bildirib.

Görüş-qəbulda kənd sakinlərindən İradə Şirinova, Cavid Cəlilov, Fənarə Alışanova, Dilşad Abdullayeva və digərləri onları narahat edən sosial məsələlərin həlli ilə bağlı təkliflər irəli sürüblər.



Çıxış edən vətəndaşlar əhalinin rifahının yaxşılaşdırılmasına, yaşayış məntəqəsinin fasiləsiz elektrik enerjisi ilə təchiz olunmasına, kənddə yeni məktəb binasının və tibb məntəqəsinin tikilərək istifadəyə verilməsinə görə ölkə başçısı cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

Sakinlər görüş-qəbul zamanı yaşayış məntəqəsində işıq xətlərinin təmir olunmasını, Topbağ- Zalam yolunun asfaltlaşdırılmasını və kənddə uşaq bağçasının açılmasını xahiş ediblər.

Görüş-qəbulda rayon icra hakimiyyətinin başçısı vətəndaşlar tərəfindən qaldırılan məsələlərlə bağlı rayonun əlaqədar təşkilatlarının rəhbərlərinə müvafiq tapşırıq və göstərişlər verib.

**Varis YAQUBOV,**
**Səhrab Umuyev (foto),**
**"Qəbələ"**

## Qəbələ Beynəlxalq Musiqi Festivalı yenidən sənətsevərlərin görüşünə gəlir

2009-cu ildən keçirilməsinə başlanılan və dünyanın musiqi ictimaiyyətində özünə layiqli yer qazanan Qəbələ Beynəlxalq Musiqi Festivalı onbirinci dəfə sənətsevərlərin görüşünə gəlir.

Festival bu dəfə iyulun 31-dən - avqustun 5-dək reallaşacaq.

Qəbələ festivalında Azərbaycanla yanaşı, müxtəlif ölkələrdən görkəmli musiqiçilər, ifaçılar iştirak edəcək. Festivalda klassik musiqi ilə yanaşı, muğam, vokal, kamera musiqisi axşamları təşkil olunacaq.




İyulun 31-də festivalın ilk konsertini Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Tələbə simfonik orkestri verəcək.

Avqustun 1-də festivalın təntənəli açılış mərasimi olacaq.

Hər il olduğu kimi, bu dəfə də festivalın proqramı zəngin və maraqlıdır.

**"Qəbələ"**

## Vətəndaşları qəbul edib

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin iyul ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, "Azərsu" ASC sədrinin müavini Etibar Məmmədov iyulun 23-də Qəbələ şəhərində sakinləri qəbul edib.

Qəbuldan əvvəl Etibar Məmmədov və Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq ulu öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Qəbələ Mədəniyyət Mərkəzində keçirilən qəbulda Qəbələ və Oğuz rayonlarından olan vətəndaşların müraciət və şikayətlərinə baxılıb. Müraciətlər əsasən içməli su təchizatı və kanalizasiya xidmətlərinin, içməli sudan əziyyət çəkən kəndlərin su təchizatının yaxşılaşdırılması, işə qəbul və digər məsələlərlə bağlı olub.



**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**